AZƏRBAYCAN RESPUBLİKASININ
AUDİTORLAR PALATASI ŞURASININ
QƏRARI

Bakı şəhəri **№336/4** **29 oktyabr 2021-ci il**

“Keyfiyyətin idarə edilməsi layihələrindən irəli gələn Beynəlxalq Audit Standartlarına (BAS) və əlaqəli materiala edilən müvafiq düzəlişlər” barədə

Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) Beynəlxalq Audit və Təsdiqləmə Standartları Şurası tərəfindən dərc olunmuş “Keyfiyyətin idarə edilməsi layihələrindən irəli gələn Beynəlxalq Audit Standartlarına (BAS) və əlaqəli materiala edilən müvafiq düzəlişlər”in tərcüməsini, nəşrini və Azərbaycan Respublikası Auditorlar Palatasının üzvləri tərəfindən auditor xidməti göstərərkən nəzərə almalarının zəruriliyini nəzərə alaraq Auditorlar Palatasının Şurası

QƏRARA ALIR:

1. Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən auditor təşkilatları və sərbəst auditorlara tapşırılsın ki, 2021-ci il 01 noyabr tarixindən Auditorlar Palatası tərəfindən Azərbaycan dilinə tərcümə edilmiş “Keyfiyyətin idarə edilməsi layihələrindən irəli gələn Beynəlxalq Audit Standartlarına (BAS) və əlaqəli materiala edilən müvafiq düzəlişlər” tətbiq edilsin.

2. Maliyyə təminatı və xarici əlaqələr idarəsinin rəisi V.Rəhimova və Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, iki həftə müddətində “Keyfiyyətin idarə edilməsi layihələrindən irəli gələn Beynəlxalq Audit Standartlarına (BAS) və əlaqəli materiala edilən müvafiq düzəlişlər”ə uyğun olaraq mövcud BAS-nın (200 saylı, 210 saylı, 230 saylı, 250 saylı, 260 saylı, 300 saylı, 315 saylı, 500 saylı, 540 saylı, 600 saylı, 610 saylı, 620 saylı, 700 saylı, 701 saylı, 720 saylı, 805 saylı, 1000 saylı) mətnlərində dəyişiklik edilməsi və edilmiş dəyişikliklərin Auditorlar Palatasının internet səhifəsində və “Auditorun şəxsi kabineti”ndə yerləşdirilməsi təmin edilsin.

3. Maliyyə təminatı və xarici əlaqələr idarəsinin rəisi V.Rəhimova, Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova və Beynəlxalq Audit Standartları və Maliyyə Hesabatlarının Beynəlxalq Standartları üzrə komitənin sədri N.Abbaslıya tapşırılsın ki, bu dəyişikliklərə dair cari ilin dekabr ayının I yarısında auditorlar üçün vebinarın keçirilməsi və bu dəyişikliklərin “Auditorun şəxsi kabineti” vasitəsilə təşviqi təmin edilsin.

4. Maliyyə təminatı və xarici əlaqələr idarəsinin rəisi V.Rəhimova, Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova və Beynəlxalq Audit Standartları və Maliyyə Hesabatlarının Beynəlxalq Standartları üzrə komitənin sədri N.Abbaslıya tapşırılsın ki, bir ay müddətində bu qərarın 1-ci bəndində göstərilmiş BAS-na edilmiş dəyişikliklərin azərbaycan dilinə tərcüməsi məqsədilə ardıcıllıq qrafikini tərtib edib təsdiq üçün Palata Şurasına təqdim etsinlər.

5. Sədrin müşaviri F.Qarayevə, Maliyyə təminatı və xarici əlaqələr idarəsinin rəisi V.Rəhimova tapşırılsın ki, üç həftə müddətində bu qərarın və düzəlişlərin mətnlərinin azərbaycan və ingilis dillərində Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

Şuranın sədri **Vahid Novruzov**